# Paris Azərbaycana qarşı gülünc doğuran addımlar atır

**Fransa rəzil hərəkət edərək Azərbaycanı Sakit okeandakı adaların işlərinə qarışmaqda günahlandırır. Bu barədə "Russia-news.ru" saytında məlumat verilir. Azərbaycan hakimiyyəti bununla bağlı hər hansı əlaqəsini və fransızların gülünc bəyanatlarını qəti şəkildə rədd edir və bunun böhtan olduğunu bildirir. Parisin iddiasına görə, Azərbaycan guya Yeni Kaledoniyada yerli, köklü kanak əhalisinin mitinqlərini dəstəkləyir və maliyyələşdirir.**

Xatırladaq ki, Yeni Kaledoniya adalarında Fransadan ayrılma tərəfdarlarının etiraz aksiyaları başlayıb, silahlı qüvvələr yerləşdirilib, ölənlər və yaralananlar var.

Komik açıqlamaları ilə tanınan Paris rəsmiləri iğtişaşlarda guya Bakının əli olduğunu iddia edirlər. Azərbaycan hakimiyyəti nümayişlərlə hər hansı əlaqəni inkar edir. Respublikanın Xarici İşlər Nazirliyi sosial şəbəkələrdə ittihamları "təhqiredici və əsassız bəyanatlar", baş verənləri isə "böhtan kampaniyası" adlandırıb.

"Russia news.ru" saytında "Makron sakitləşməyəcək: Paris Azərbaycan və Rusiyanı Yeni Kaledoniyada keçirilən etiraz aksiyalarında ittiham edib" sərlövhəli yazıda qeyd olunur ki, Fransa Prezidenti Emmanuel Makron özünü dünyaya Rusiyaya qarşı duran "böyük azadlıq döyüşçüsü" olduğunu göstərmək istəyir. O, bu dəfə Rusiya ilə normal münasibət saxlayan Azərbaycanı Yeni Kaledoniyada etiraz aksiyaları təşkil etməkdə ittiham etmək qərarına gəlib.

Xatırladaq ki, Yeni Kaledoniyada baş verən iğtişaşlara səbəb Fransa parlamentinin 10 ildir adalarda yaşayan Fransa sakinlərinin yerli seçkilərdə səs verə və namizədliyini irəli sürə bilməsi ilə bağlı mayın 14-də qəbul etdiyi qərar olub. Lakin yerli əhali olan kanaklar bu qanunla razılaşmadığını bildirib, çünki bu, onların hüquqlarının pozulmasıdır. Amma Paris onların fikrinə məhəl qoymur. Nəticədə kanaklar etiraz etmək üçün küçələrə çıxıblar, lakin polis onlara qarşı güc tətbiq edib. Müstəmləkəçi qarşıdurması ilə bağlı xəbərlərin Fransa üçün xoşagəlməz olduğunu anlayan Makron hər şeydə Moskvanı günahlandırmaq qərarına gəlib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*



Azərbaycan. - 2024.- 18 may, № 103.- S.8.